Food and Agriculture
Organization of the
United Nations

# QUŞÇULUQ SAHƏSİNDƏ ANTİBİOTİKDƏN İSTİFADƏNİ NECƏ AZALTMAQ OLAR?

**Antibiotiklərdən düzgün istifadə edin** - Antibiotiklərdən yalnız xəstəlik aşkar edilmiş quşları və onların infeksiya daşıyıcılarını müalicə etmək üçün istifadə edin. Antibiotikləri qida ilə deyil, su ilə verməyə çalışın. Onlardan profilaktik məqsədlərlə və ya böyüməni stimullaşdırmaq üçün istifadə etməyin.

**Yüksək səviyyəli biotəhlükəsizliyi təmin edin** - Quşçuluq fermasına giriş və çıxışı, eyni zamanda fermaya daxil olan şəxslərin geyimlərini və ayaqqabılarını dəyişməsinə, əllərini yumasına nəzarət edin. Fermaya daxil olmazdan öncə nəqliyyat vasitələrini təmizləyin və dezinfeksiya edin. Xəstəlik daşıyıcısı ola biləcək gəmiricilərin, ev heyvanlarının və yırtıcıların əraziyə daxil olmasına nəzarət edin. Qrup şəklində (“all-in/all-out”) idarəetməyə üstünlük verin.

**Peyvəndləməni vaxtlı-vaxtında həyata keçirin** - Keyfiyyətinə zəmanət verilən peyvəndlərdən istifadə edin. Peyvəndlərin saxlama, davranma və tətbiq zamanı istehsalçının təlimatlarına riayət edin.

**Gündəlik yoxlama aparın** - Birdən və ya tədricən baş verən dəyişiklikləri dərhal müəyyən etmək üçün quşların sağlamlığını və davranışlarını gündəlik yoxlayın. Bu yoxlamalar zamanı aşkar edilmiş ölü quşları kənarlaşdırın və məhv edin.

**Rahat mühiti təmin edin** - Havalandırma, yemləmə və sulama yerləri, işıq və saxlanma sıxlığı və digər şərtlərlə bağlı tövsiyələrə riayət edin.

**Xüsusi qida əlavələrindən istifadə edin** - Prebiotiklər, probiotiklər, efir yağları, orqanik turşular və s. faydalı ola bilər. Onlar bağırsaqlarda faydalı bakteriyaların yayılmasına kömək edir, antibakterial xüsusiyyətlərə malik olur və bağırsaqları sağlam saxlamağa imkan verir.

**Mühiti hazırlayın** - Orqanik materialları aradan qaldırmaq üçün quş hinini və avadanlığı yuyucu vasitələr və/və ya isti su ilə yuyub ardınca dezinfeksiya edin. Hər bir istehsal dövründən sonra ərazinin müvafiq müddətə boş saxlanmasını təmin edin.

**Dəstəyə sağlam cücələr əlavə edin** - Dəstəyə əlavə etmək üçün quşları etibarlı mənbələrdən əldə edin. Quşları aldığınız dəstələrin peyvəndlənmiş və xəstəlikdən azad olmasına nəzarət edin.

**Cücələr üçün yaxşı başlanğıcı təmin edin** - Fermaya gətirilən cücələri dərhal su və yemlə təmin edin. Onların qida və fizioloji tələblərini təmin etdiyinizdən əmin olun.

**Yüksək keyfiyyətli sudan istifadə edin** - Yaxşı gigiyenik keyfiyyətə malik su təchizatını təmin edin. Su sistemlərini tez-tez təmizləyin və dezinfeksiya edin. Sulama xətlərini hər həftə yuyun.

**Yemə xüsusi diqqət yetirin** - Yem lazımi gigiyenik keyfiyyətdə və balanslı olmalıdır, kifayət qədər enerji və mineral ehtiva etməlidir. Yeməyi düzgün saxlayın. Bitki əsaslı yem tövsiyə olunur.

SÜD İSTEHSALINDA ANTİBİOTİKLƏRDƏN SƏMƏRƏLİ VƏ MƏSULİYYƏTLƏ NECƏ İSTİFADƏ ETMƏYİNİZ HAQQINDA DAHA ÇOX MƏLUMAT ÜÇÜN SKAN EDİN

cc BY NC SA

© FAO, 2022
CB6811AZ/1/02.22